# A R A Y I Ş

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə İş Planının V. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələş dirilməsinə qarşı mübarizə" bölməsində nəzərdə tutulmuş işlərin monitorinqi**

*Bakı şəhəri* *12 avqust 2024-cü il*

## I. Giriş

### 1.1.Monitorinqin keçirilməsinin əsası:

Azərbaycan Respublikası Auditorlar Palatası sedrinin 2024-cü il 15 iyul tarixli 1/27 saylı Sərəncamı.

### 1.2. Monitorinqi keçirən Komissiyanın tərkibi

***Komissiyanın sədri:***

***Cəfər Həsənov*** – "Active Consulting CN" MMC-nin auditoru

***Komissiyanın üzvləri:***

***Nəcəf Talıbov*** – Sədrin elmi-metodik məsələlər üzrə müşaviri;

***Elçin Qurbanov*** – Palatanın Şurası yanında "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmsına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM)" üzrə komitənin sədri, "VXA - Audit" MMC-nin direktor-auditoru;

***İlham Hacı-Əzizov*** – Auditorlar Palatasının üzvü, sərbəst auditor;

***Həbibə Məmmədova*** – Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə şöbəsinin müdiri.

### 1.3.Monitorinqin keçirilməsinin məqsədi:

Auditorlar Palatasının 2024-cü il üzrə İş Planının V. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə" bölməsində nəzərdə tutulmuş işlərin icra vəziyyətinin müəyyən edilməsi.

### 1.4. Monitorinqin predmeti

Auditorlar Palatasının 2024-cü il üçün İş Planının V. bölməsi üzrə nəzərdə tutulmuş işlərin yerinə yetirilməsi.

### 1.5.Monitorinqin keçirilmə müddəti və əhatə olunan dövr

Monitorinq Palatanın 2024-cü il üzrə İş Planının V bölməsində nəzərdə tutulan tədbirlərin icra vəziyyətini 2024-cü ilin yanvar-iyul ayları əhatə olunmaqla avqust ayının 1-dən 12-si tarixinədək keçirilmişdir.

### 1.6. Öyrənilmiş və üzləşdirilmiş sənədlər

Auditorlar Palatasının 2024-cü il üzrə İş Planı, Planın V bölməsində nəzərdə tutulan tədbirlər və bu tədbirlərin icrasını təmin edən Palata Şurasının qərarları, Palata Sədrinin sərəncam və əmrləri, Kordinasiya Şurasına və MMX təqdim olunan hesabat və məlumatlar və digər sənədlər.

## II. Monitorinqin keçirilməsi və sübutların toplanması

Komissiya tərəfindən təqdim olunan sənədlər və izahatlara əsasən aparılan yoxlama nəticəsində aşağıdakılar müəyyən edilmişdir:

1. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.1-ci "Auditor fəaliyyəti üzrə risk qiymətləndirilməsinin metodologiyası və zəruri təhlil istiqamətləri üzrə təkliflərin hazırlanması (icra müddəti – **Müntəzəm**, məsul icraçılar - E.İbrahimov, H.Məmmədova)" **bəndi müntəzəm olaraq icra olunur (Auditorlar Palatası Şurasının 2023-cü il 28 seyntabr tarixli 359/3 saylı, 2023-cü il 14 dekabr 361/5 saylı, 2023-cü il 12 iyun tarixli 357/2 saylı Şura Qərarları əlavə olunur)** ;

2. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.2-ci "Auditor fəaliyyətində aşağıdakı istiqamətlər üzrə risk qiymətləndirməsinin həyata keçirilməsi: Cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılmasına qarşı mübarizə üzrə (icra müddəti – **Müntəzəm**, məsul icraçılar - E.İbrahimov, H.Məmmədova)" bəndinin icrasına uyğun olaraq "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsi üzrə **bəndinin icrasına uyğun olaraq Auditorlar Palatası Şurasının 2024-cü il 09 aprel tarixli 364/11 saylı qərarı ilə "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsi üzrə 2024-cü il üçün Plan-qrafik" təsdiq olunmuşdur, lakin bu bəndin müntəzam olaraq icrası ƏL/TMM üzrə yoxlamalar aparıldıqdan sonra təmin olunacaqdır (Şura Qərarı əlavə olunur);**

3. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.3-cü "Palata üzrə sahəvi risk qiymətləndirməsinin yekun nəticələrinin müzakirəsi, onun yenilənməsi ehtiyaclarının və görülməli işlərin müəyyən edilməsi işinin təşkili (icra müddəti – **Müntəzəm**, məsul şəxslər - E.İbrahimov, H.Məmmədova)" bəndinin icrası sahəvi risk qiymətləndirilməsinin metodoloji

əsaslarının yaradılması və Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına dair qanunvericiliyə riayət edilməsinin **ƏL/TMM üzrə yoxlamalar aparıldıqdan sonra** 2025-ci il də mümkün olacaqdır. Bu səbəbdən bu bəndin iş planından **çıxarılmasını məqsədəmüvafiq hesab edilir;**

4. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.4-cü "Auditorlar Palatası tərəfindən sahəvi risk qiymətləndirilməsinin aparılması və onun nəticələrinə dair hesabatın Koordinasiya Şurasına aşağıdakı sektorlar üzrə təqdim edilməsi:

-Maliyyə hesabatlarının auditi üzrə;

-Əlaqəli auditor xidmətləri üzrə (icra müddəti – **01 aprel tarixinədək**, məsul şəxslər - E.İbrahimov, H.Məmmədova)" bəndinə uyğun olaraq hesabat hazırlanmış və 01 aprel tarixinədək Koordinasiya Şurasına göndərilməsi təmin edilmişdir, **bu bənd icra edilmişdir (Hesabat əlavə olunur);**

5. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.5-ci "Auditor fəaliyyəti sahəsində risk qiymətləndirilməsi nəticəsində aşkar olunmuş risklərin idarə olunması və hədəflərin müəyyən edilməsi məqsədilə qısamüddətli hədəflərə münasibətdə zəruri tədbirlərin görülməsi, orta və uzunmüddətli hədəflərə münasibətdə müvafiq plan layihələrinin hazırlanması (icra müddəti – **Müntəzəm**, məsul şəxslər - E.İbrahimov, H.Məmmədova)" bəndinin icrası sahəvi risk qiymətləndirilməsinin metodoloji əsaslarının yaradılması və ƏL/TMM üzrə yoxlamalar aparıldıqdan sonra 2025-ci il də mümkün olacaqdır. **Bu səbəblərdən bəndinin icrası təxirə salınır;**

6. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.6-ci "Risk qiymətləndirilməsi prosesində Auditorlar Palatası tərəfindən zəruri statistik və digər məlumatların əldə olunması və Koordinasiya Şurasının işçi qruplarına təqdim edilməsi (icra müddəti – **Müntəzəm**, məsul şəxslər - E.İbrahimov, H.Məmmədova)" **bəndinə uyğun olaraq tələb edildiyi hallarda məlumat göndərilməsi nəzərdə tutulmuşdur, lakin bu günə qədər tələb olunmadığı üçün heç bir məlumat göndərilməmişdir. Eyni zamanda Maliyyə Monitorinqi Xidməti (bundan sonra- MMX) tərəfindən həmin məlumat forması müəyyən edilməmişdir;**

7. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.7-ci "Koordinasiya Şurası tərəfindən müəyyən edilmiş metodologiya əsasında auditor fəaliyyəti üzrə məlumatların təhlili və müzakirələrinin aparılması, qiymətləndirmə nəticələrinin sənədləşdirilməsi, aşkar olunan risklərin idarə edilməsi, aradan qaldırılması və ya azaldılması məqsədilə təkliflərin hazırlanması və Koordinasiya Şurasına təqdim edilməsi məqsədilə İşçi qrupuna verilməsi (icra müddəti – **Tələb edildiyi halda**, məsul şəxslər - E.İbrahimov, H.Məmmədova)" **bəndinə uyğun olaraq tələb edildiyi hallarda məlumat göndərilməsi nəzərdə**

tutulmuşdur, lakin bu günə qədər tələb olunmadığı üçün heç bir məlumat göndərilməmişdir;

8. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.8-ci "Auditorlar Palatası tərəfindən risk qiymətləndirilməsi nəticəsində aşkarlanan risklərə münasibətdə tədbirlər görülməsinin təmin edilməsi və müvafiq məlumatın Koordinasiya Şurasına təqdim edilməsi (icra müddəti – **İl ərzində**, məsul şəxslər - E.İbrahimov, H.Məmmədova)" **bəndin icrası ilə bağlı məlumat ilin sonunda təqdim ediləcəkdir;**

9. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.9-cu "Ölkə risk qiymətləndirilməsinə dair hesabatın Maliyyə Monitorinqi Xidmətinin rəsmi internet informasiya ehtiyatlarında dərc edildikdən sonra bütün auditorlara göndərilməsi (icra müddəti – **Hesabat dərc edildikdən sonra**, məsul şəxslər - E.İbrahimov, H.Məmmədova)" Maliyyə Monitorinqi Xidmətinin rəsmi internet informasiya ehtiyatlarında **hesabat dərc edildikdən sonra bəndin icrası mümkün olacaqdır;**

10. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.10-cu "Auditor fəaliyyəti üzrə risk qiymətləndirməsi sahəsində müəyyən olunmuş hədəflərə nail olunmasına cari nəzarətin həyata keçirilməsi və bu barədə Koordinasiya Şurasına illik əsasla məlumat verilməsi (icra müddəti – **İl ərzində**, məsul şəxslər - E.İbrahimov)" **2025-ci ilin yanvar ayında məlumat Koordinasiya Şurasına veriləcəkdir;**

11. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.11-ci "Auditor xidməti üzrə ƏL/TMM üzrə fəaliyyət planlarının icrasının öz öhdəlikləri daxilində təmin edilməsi (icra müddəti – **Müntəzəm**, məsul şəxslər - E.İbrahimov, H.Məmmədova)" bəndinin icrası iş planının ayrı-ayrı bəndlərində əksini tapmışdır bu səbəbdən **iş planından çıxarılması məqsədəmüvafiq hesab edilir;**

12. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının:

12.1. 5.12.1-ci "Auditorlar Palatası tərəfindən aparılan nəzarət yoxlamalarının sayı, əhatə dairəsi, tətbiq edilən sanksiyaların sayı və xarakteri barəsində statistik məlumatların Koordinasiya Şurasına təqdim edilməsi (icra müddəti – **Yanvar**, məsul şəxslər - E.İbrahimov, Q.Əhmədov, H.Məmmədova, Z.Almazov) **bəndinin icrası ƏL/TMM üzrə yoxlamalar aparıldıqdan sonra təmin olunacaqdır, lakin yoxlamaların aparılması üçün nəzərdə tutulan "Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparılması barədə Qaydalar"ı təsdiq olunması üçün Palata Şurasının növbəti iclasına çıxarılması üçün təqdim edilib;**

12.2. 5.12.2-ci "Auditorlar Palatası tərəfindən nəzarət yoxlamalarının gedişində şübhəli hallara dair məlumatların müəyyən edilməsinə və Maliyyə Monitorinqi Xidmətinə

təqdim edilməsinə dair sistematik təhlillər aparılması, əldə olunmuş nəticələr əsasında şübhəli hallara dair məlumatlarla bağlı çatışmazlıqların aradan qaldırılması sahəsində səmərəli mexanizmlərin müəyyən edilməsi (icra müddəti – **İl ərzində (ilin sonunda hesabat təqdim edilməklə)**, məsul şəxslər - E.İbrahimov, Q.Əhmədov, R.Cəfərli, V.Cavadov, H.Məmmədova) **bəndinin icrası Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparıldıqdan sonra təmin olunacaqdır;**

13. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.13-cu "ƏL/TMM üzrə Komitənin yaradılması (icra müddəti – **Yanvar**, məsul şəxslər – Rəhbərlik, E.İbrahimov) **bəndinin icrası təmin edilmişdir (Auditorlar Palatası Şurasının 2024-cü il 21 fevral tarixli 363/1 saylı Şura Qərarı əlavə olunur);**

14. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.14-cü "ƏL/TMM üzrə monitorinqlərin aparılmasına dair müfəttişlər qrupunun yaradılması (icra müddəti – **Yanvar**, məsul şəxslər – E.İbrahimov, N.Talıbov) **bəndinin icrası təmin edilmişdir (Palata sədrinin 2024-cü il 16 yanvar 1/5 saylı Sərəncam əlavə olunur);**

15. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.15-ci "ƏL/TMM üzrə monitorinqlərin aparılmasına dair müfəttişlərin hazırlanması (icra müddəti – **I rüb**, məsul şəxslər – E.İbrahimov, N.Talıbov, E.Behbudova) **bəndinin icrası "Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparılması barədə Qaydalar" təsdiq edildikdən sonra mümkün olacaqdır (Məktub əlavə olunur);**

16. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.16-cı "Sahəvi risk qiymətləndirməsinin nəticələrinə dair monitorinqlərin aparılması üzrə plan-qrafikin hazırlanması (icra müddəti – **Yanvar**, məsul şəxslər – E.İbrahimov, N.Talıbov) **bəndinin icrasına uyğun olaraq Auditorlar Palatası Şurasının 2024-cü il 09 aprel tarixli 364/11 saylı qərarı ilə "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsi üzrə 2024-cü il üçün Plan-qrafik" təsdiq olunmuşdur, lakin bu bəndin müntəzəm olaraq icrası ƏL/TMM üzrə yoxlamalar aparıldıqdan sonra təmin olunacaqdır;**

17. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.17-ci "ƏL/TMM üzrə maliyyə xarakterli məlumatların təqdim edilməsi sistemlərində xarici təcrübənin öyrənilməsi (icra müddəti – **May**, məsul şəxslər - E.İbrahimov, H.Məmmədova)" **bəndinin icrası Almaniya**

**Federativ Respublikasının və Pakistan İslam Respublikasının təcrübəsi öyrənilərək təmin edilmişdir (Məktub əlavə olunur);**

18. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.18-ci "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidməti ilə ƏL/TMM sahəsində Auditorlar Palatasının əməkdaşlığının genişləndirilməsi məqsədilə işçi qrupunun yaradılması (icra müddəti – **May**, məsul şəxslər - E.İbrahimov, H.Məmmədova)" **bəndinin icrası təmin edilmişdir (Məktub əlavə olunur);**

19. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.19-ci "ƏL/TMM ilə bağlı monitorinqlərin keçirilməsi (icra müddəti – İl ərzində (rüblük hesabat təqdim edilməklə), məsul şəxslər - E.İbrahimov, H.Məmmədova, Z.Almazov)" **bəndinin icrası monitorinqlərin aparılması üçün nəzərdə tutulan "Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparılması barədə Qaydalar" təsdiq olunmadığı üçün təxirə salınır;**

20. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.20-cu "Auditor xidməti üzrə risk qiymətləndirilməsi nəticələrinin Koordinasiya Şurasına təqdim edilməsi (icra müddəti – İlin sonunda, məsul şəxslər - E.İbrahimov, B. Qasımova, H.Məmmədova)" **2025-ci ilin yanvar ayında məlumat Koordinasiya Şurasına veriləcəkdir;**

21. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.21-ci "Auditorlar Palatasının əməkdaşları və üzvləri üçün sahəvi risklərə dair keçirilmiş seminar barədə Koordinasiya Şurasına məlumatın təqdim edilməsi (icra müddəti – İlin sonunda, məsul şəxslər - E.İbrahimov, B. Qasımova, H.Məmmədova)" **bəndinin icrası təmin edilmişdir (Koordinasiya Şurasının katibliyinə 2023-cü ilin nəticələrinə dair göndərilmiş hesabat əlavə olunur, 2024-cü il üzrə statistik məlumatlar illin sonunda təqdim ediləcəkdir);**

22. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.22-ci "Auditorlar Palatası tərəfindən aşkar edilmiş (ölkə, sahəvi və institusional) cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi üzrə zəifliklərə və təhdidlərə dair keçirilmiş təlimlər barədə Koordinasiya Şurasına məlumatın təqdim edilməsi (icra müddəti – İlin sonunda, məsul şəxslər - E.İbrahimov, B. Qasımova, H.Məmmədova)" **bəndinin icrası təmin edilmişdir (Koordinasiya Şurasının katibliyinə 2023-cü ilin nəticələrinə dair göndərilmiş hesabat əlavə olunur);**

23. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.23-cü "ƏL/TMM üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi (Pakistan təcrübəsi) (icra müddəti – iyul, məsul şəxslər - E.İbrahimov, H.Məmmədova)" **bəndinin icrası Pakistan İslam Respublikasının təcrübəsi öyrənilərək təmin edilmişdir (Məktub əlavə olunur);**

24. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.24-cü "Auditorlar Palatası tərəfindən ƏL/TM sahəsində nəzarət tədbirlərilə bağlı beynəlxalq məlumat mübadiləsinin həyata keçirilməsinə dair əməkdaşlıq mexanizminin yaradılması (icra müddəti – **Aprel**, məsul şəxslər - E.İbrahimov, Q.Əhmədov, H.Məmmədova) bəndinin icrasında nəzərdə tutulan məsələ Palatanın səlahiyyətlərinə daxil olmadığı üçün **bəndin iş planından çıxarılması məqsədəmüvafiq hesab edilir. Beynəlxalq Məlumat Mübadiləsinin həyata keçirilməsinə dair əməkdaşlıq mexanizminin yaradılması MMX səlahiyyətləri daxilindədir;**

25. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.25-ci "Öhdəlik daşıyan şəxslərin idarəçilərinin, mühüm iştirak payının sahiblərinin, benefisiar mülkiyyətçisinin, onların yaxın qohumlarının və yaxın münasibətdə olduğu şəxslərin araşdırılması, vətəndaş qüsursuzluğu, lazımi məqbul keyfiyyətdə olan şəxs statusundakı sonrakı dəyişikliklərin müəyyən edilməsinə proaktiv yanaşmanın təmin edilməsi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması (icra müddəti – **IV**, məsul şəxslər - E.İbrahimov, N.Talıbov) **bəndinin icrası Palatanın səlahiyyətlərindən kənar olduğu üçün mümkün deyil, bu səbəbdən iş planından çıxarılması məqsədəmüvafiq hesab edilir;**

26. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.26-cı "ƏL/TMM ilə bağlı vəzifəli şəxslərlə yanaşı öhdəlik daşıyan şəxslərə sanksiyaların tətbiqi, sanksiyaların effektivliyinin, proporsionallığının təmin edilməsi, çəkindiriciliyinin artırılması ilə bağlı təkliflərin təqdim edilməsi və mediada dərc edilməsi mexanizminin yaradılması (icra müddəti – **15 mart**, məsul şəxslər - E.İbrahimov, N.Talıbov, H.Məmmədova) bəndinin icrası Palatanın səlahiyyətlərinə daxil olmadığı üçün **iş planından çıxarılmasını məqsədəmüvafiq hesab edilir (Palata sanksiya tətbiq edə bilməz);**

27. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.27-ci "Öhdəlik daşıyan şəxslər tərəfindən benefisiar mülkiyyətçinin siyasi nüfuzlu şəxs olmasının müəyyən edilməsinə nəzarətin gücləndirilməsi yaradılması (icra müddəti – **Mütəmadi**, məsul şəxslər - E.İbrahimov, H.Məmmədova) **bəndinin icrasına dair bildiririk ki, benefisiar mülkiyyətçinin müəyyən edilməsi səlahiyyəti auditorlara verilməmişdir bu səbəbdən bəndin icrası mümkün olmadığı üçün iş planından çıxarılması məqsədəmüvafiq hesab edilir;**

28. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.28-ci "Öhdəlik daşıyan şəxslərin daxili nəzarət qaydalarının mütəmadi olaraq yenilənməsini, məhsul, əməliyyat və çatdırılma kanalı risklərinin nəzərə alınmasını və daxili nəzarət proqramının praktikada effektivliyini yoxlamaq üçün vaxtaşırı auditin aparılması (icra müddəti – **Mütəmadi**, məsul şəxslər -

E.İbrahimov, H.Məmmədova) **bəndinin icrası müntəzəm olaraq təmin edilir, "Daxili Nəzarət Qaydaları" auditorlara bu il təqdim edilmiş və gələcəkdə zəruri hallarda yenilənməyi nəzərdə tutulmuşdur;**

29. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.29-cı "Öhdəlik daşıyan şəxslər tərəfindən benefisiar mülkiyyətçinin müəyyən edilməsi, bu məlumatların yenilənməsi və aktuallığının təmin edilməsi (icra müddəti – **Mütəmadi**, məsul şəxslər - E.İbrahimov, H.Məmmədova) bəndinin icrası **benefisiar mülkiyyətçinin müəyyən edilməsi hal-hazırda auditorların səlahiyyətlərindən kənar olduğu üçün bu bəndin iş planından çıxarılması məqsədəmüvafiq hesab edilir;**

30. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.30-cu " Nəzarət orqanları tərəfindən öhdəlik daşıyan şəxslərin daxili nəzarət proqramına dair müəyyən edilmiş minimum tələblərindən əlavə tələblər qoyulduğu zaman bu tələblərə nəzarət mexanizminin qurulması (icra müddəti – **Noyabr**, məsul şəxslər - E.İbrahimov, H.Məmmədova) **bəndinin icrası ilə bağlı bildiririk ki, müəyyən edilmiş minimum tələblərdən əlavə tələblərin qoyulması nəzərdə tutulmamışdır, bu səbəbdən bəndin icrası mümkün olmadığı üçün iş planından çıxarılması məqsədəmüvafiq hesab edilir;**

31. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.31-ci "Nəzarət orqanları tərəfindən mübadilə əsasında əldə edilən məlumatların hər hansı bir şəkildə yayılması və ya bu məlumatların nəzarət və qeyri-nəzarət məqsədləri üçün istifadə edilməsi üçün razılığın alınması tələbinin qanunvericiliyə daxil edilməsi ilə bağlı normativ hüquqi akt layihəsinin hazırlanması, razılaşdırılması və təqdim edilməsi (icra müddəti – **Mütəmadi**, məsul şəxslər - E.İbrahimov, H.Məmmədova) **bəndinin icrası təmin edilmişdir (Hesabat əlavə olunur);**

32. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.32-ci "Auditorlar Palatasının müvafiq struktur bölmələrinin əməkdaşları və ƏL/TMM üzrə monitorinqlərin aparılmasına dair müfəttişlərlə məxvilik barədə sənədlərin hazırlanması (icra müddəti – **Fevral**, məsul şəxslər - E.İbrahimov, H.Məmmədova) **bəndinin icrasına uyğun olaraq "Konfidensiallıq Bəyannaməsi" hazırlanaraq idarənin əməkdaşları və müffətişlər tərəfindən imzalanması təmin edilmişdir (Palata sədrinin 2024-cü il 30 yanvar 07 saylı Əmri əlavə olunur).**

## III.Nəticə

Monitorinqin predmeti üzrə toplanmış sübutlar müvafiq meyarlar ilə müqayisə edilərək aşağıdakı nəticəyə gəlindi.

Auditorlar Palatasının 2024-cü il üzrə İş planının v. "cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələş dirilməsinə qarşı mübarizə" bölməsində nəzərdə tutulmuş 32 bənd üzrə:

- **16** işin icrası təmin edilmiş, bundan 3-ü müntəzəm icra olunur, 3 işin İcra müddəti başa çatmayıb;
- **2** işin icrası MMX tərəfindən tələb edildiyi hallarda təmin ediləcək;
- **6** işin icrası obyektiv səbəblərdən təxirə salınmış;
- **8** işin Plandan çıxarılması məqsədəmüvafiq hesab edilir.

***Komissiyanın sədri*** Cəfər Həsənov

***Komissiyanın üzvləri*** Nəcəf Talıbov

Elçin Qurbanov

İlham Hacı-Əzizov

Həbibə Məmmədova